1_Layout 1 15.05.2021 11:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 9 (599)

17 may 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər



Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına evsahibliyi edib. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşılayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalına gəliblər.

Dövlətimizin başçısı festivalın açılışında çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz dostlar, bu gün ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur. Biz dünyanın müxtəlif yerlərində baş verən hadisələri izləyirik, görürük və deyə bilərəm ki, bir neçə il bundan əvvəl bu gün mövcud olan vəziyyəti görürdük. Ona görə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə, o cümlədən, ölkəmizdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi təbliğ edirdik, müxtəlif xalqların birgəyaşayışını təbliğ edirdik və deyirdik ki, bu, mümkündür. Azərbaycanın timsalında deyirdik ki, bu, mümkündür və göstərirdik, öz təcrübəmizi bölüşürdük, öz fikirlərimizi bölüşürdük və hesab edirəm ki, bizim bu səylərimiz nəticə verdi. Çünki bu gün dünyada bu məsələ ilə bağlı daha dəqiq təsəvvür vardır.

44 günlük müharibə Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Azərbaycan tam Qələbə qazandı, işğalçıları qədim Azərbaycan torpaqlarından qovdu və azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağını ucaltdı. 44 günlük müharibə bizim şanlı tariximizdir. 44 günün hər bir günü qəhrəmanlıq dastanı idi, hər bir gündə biz şəhidlər verirdik, qan tökürdük və irəliyə gedirdik. Hər gün biz irəliyə gedirdik. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq irəli gedirdik, şəhidlər verərək, qan tökərək, xalqımız birləşərək və biz birləşib bu Qələbəni şərtləndirdik. 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın – alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır. Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi. Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi. Çünki ondan bir gün sonra Ermənistan məcbur olub bizim şərtlərimizə əsasən formalaşmış kapitulyasiya aktına imza atıb və biz bir güllə atmadan Laçın, Kəlbəcər və Ağdam rayonlarını geri qaytardıq. Təsadüfi deyil ki, Şuşanın azad edilməsi günü – 8 noyabr günü Azərbaycanda rəsmi dövlət bayramı elan edildi, Zəfər bayramı elan edildi və biz bu bayramı hər il qeyd edəcəyik.

Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu.

Əminəm ki, əziz dostlar, sizin bir çoxunuz buraya işğaldan sonra birinci dəfədir ki, gəlirsiniz, bunu görürsünüz, bunu hiss edirsiniz. Mən artıq 3-cü dəfədir Şuşadayam və demişəm ki, hər dəfə bura gələndə burada qalmaq istəyirəm, buradan ayrılmaq istəmirəm. Şuşanın özünəməxsus aurası var. Mən dünyada Şuşaya bənzər şəhər görməmişəm, bəlkə də yoxdur. Bu gün biz uzun fasilədən sonra azad Şuşada yığışmışıq. Bu gün Cıdır düzündə Azərbaycan muğamı səslənəcək. Uzun fasilədən sonra biz Şuşada bu gözəl musiqi bayramını qeyd edəcəyik. Bu gün, sözün əsl mənasında, musiqi bayramıdır. Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır.

Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir. Artıq Yuxarı Gövhərağa məscidi təmir edilib və sabah orada bayram namazı qılınacaq.

Festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsi də təsadüfi deyil. Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq. Bugünkü tədbir bir daha onu göstərir ki, biz Şuşaya qayıtmışıq və bundan sonra burada əbədi yaşayacağıq. Şəhərdə bərpa işləri başlayıb, mən qeyd etdim ki, Yuxarı Gövhərağa məscidi artıq təmir olunubdur. Beş il bundan əvvəl Cocuq Mərcanlı işğaldan azad olunandan sonra orada mən Şuşa məscidinin bənzəri olan məscidi tikdirdim. O vaxt məscidin açılışında demişdim ki, gün gələcək biz Şuşada məscidləri bərpa edəcəyik və yeni məscidlər tikiləcəkdir. Bu gün Ramazan bayramı ərəfəsində Şuşada yeni möhtəşəm məscidin təməli qoyuldu. Ermənilər tərəfindən qurudulmuş "Xan qızı Natəvan" bulağından bu gün su gəldi. Bütün bunlar böyük rəmzi məna daşıyır. Bax, bizim qayıdışımız budur. Biz Şuşanı quracağıq, bərpa edəcəyik, mənfur düşmən isə Şuşanı dağıdırdı. İndi siz - burada olan vətəndaşlar, dostlar gəzəcəksiniz, görəcəksiniz ki, Şuşa hansı dağıntılara məruz qalıb. Amma yenə də deyirəm, biz Şuşamızı, Ağdamımızı, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Laçınımızı, Kəlbəcərimizi qəlbimizdə yaşatmışdıq. Dağıdılmış məscidləri biz bərpa edəcəyik, amma o məscidlər işğal dövründə bizim qəlbimizdə ucaldılmışdı. İndi isə biz burada, Cıdır düzündə - hər bir azərbaycanlı üçün müqəddəs olan yerdə yığışmışıq və bu musiqi bayramını, bu birlik bayramını, bu qayıdış bayramını, bu ləyaqət bayramını qeyd edirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

x x x

Sonra "Xarıbülbül" festivalı başlanıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva festival ifaçılarının çıxışlarını dinləyiblər.

x x x

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı mayın 13-də qala-konsertlə başa çatıb.

**"AZƏRTAC"ın materialları əsasında hazırlanıb.**

## ULU ÖNDƏRİN ƏZİZ XATİRƏSİ EHTİRAMLA YAD EDİLİB

***Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 98 il ötdü. Bu münasibətlə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri Xiyabana gedərək Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıblar.***





2_Layout 1 15.05.2021 11:58 Page 1



# Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçılar hərbi andı qəbul ediblər

Mayın 8-də Daxili Qoşunların 12565 və 25031 saylı hərbi hissələrində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.



25031 saylı hərbi hissədə keçirilən tədbirdə daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak edib.

Mərasim Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir. Təbrikdə, həmçinin, 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi də bildirilib.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# "HƏDƏFİMİZ HƏRBİ HİSSƏNİN BÖLMƏLƏRİ ARASINDA BİRİNCİLƏR SIRASINDA OLMAQDIR"

16077 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri də xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə komandirinin vəzifəsini müvəqqəti icra edən kapitan Sarvan Həmidov tabeliyində olan bölmələrin ümumi fəaliyyətini təhlil edərkən, dəstənin qarşısına qoyulmuş vəzifələr barədə danışarkən bildirdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər, eləcə də aparılan tərbiyə işi yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmasına xidmət edir: "Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Dəstə hər zaman döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, tapşırılmış vəzifələri yerinə yetirməyə hər zaman hazır olmalıdır".





O, dəstədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətli tədrisinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi. Əlavə etdi ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olması yoxlanılaraq, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşqələyə uyğun ekipirovkası və silahlanması təmin olunur.

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran kapitan S.Həmidov bu işdə bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Mübariz Həşimovun da əməyini yüksək qiymətləndirdi.

Baş leytenant M.Həşimov bölmədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini diqqətə çatdırdı. O, hərbi qulluqçuların istənilən çətinliyin öhdəsindən gəlməyə hazır olduqlarını bildirdi: "Qarşıya qoyulan istənilən tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifələrindən biridir. Keçirilən təlim və məşğələlərin, həmçinin, aparılan tərbiyə işinin əsas məqsədini də məhz bu amillər təşkil edir. Qeyd edim ki, şəxsi heyətimiz 44 günlük Vətən müharibəsi zamanı Ağdam və Goranboy istiqamətlərində döyüş xidmətinə cəlb olunub. Bölmənin sürücü heyətindən Şuşa istiqamətində döyüş tapşırıqlarını yerinə yetirərkən kiçik çavuş Nadir Qafarov yaralanıb. Hazırda hərbi qulluqçularımız işğaldan azad olunmuş rayonlar - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlıda və Xocavənd rayonunun Hadrut qəsəbəsində komendant xidmətinə cəlb olunublar".

Baş leytenant M.Həşimov, həmçinin, təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da xüsusi diqqət yetirdiklərini vurğuladı. O, şəxsi heyətin bilik səviyyəsinin, eləcə də peşə vərdişlərinin artırılmasının bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etdi.

**baş leytenant Nigar Ağayeva**

# Hərbi qulluqçularımız vətəndaşların təhlükəsizliyinin keşiyində ayıq-sayıqdırlar

Bu gün 67987 saylı hərbi hissə ictimai asayişin və təhlükəsizliyin keşiyində mətinliklə dayanır. Əminliklə qeyd etmək olar ki, ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissə qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə qadirdir.





Bildiyimiz kimi, 2015-ci il noyabrın 26-da Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları törətməyi, bütövlükdə konstitusiya quruluşunu dəyişdirməklə şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilib. Vətəndaşlarımızın hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə 2015-ci il dekabr ayının 1-də qəsəbədə Daxili Qoşunların şəxsi heyətinin də cəlb olunduğu xüsusi əməliyyatın keçirilməsinə başlanılıb. Müvafiq plana uyğun olaraq, polis əməkdaşları və hərbi qulluqçularımız qəsəbəyə daxil olublar, müəyyən edilmiş yerlərdə postlar qoyulub. Həyata keçirilən tədbirlər nəticəsində qanunazidd hərəkətlərin qarşısı alınıb.

Nardaran qəsəbəsində baş vermiş hadisələrlə əlaqədar 67987 saylı hərbi hissə tərəfindən polis orqanları ilə birgə burada əmin-amanlıq təmin edilib və hal-hazırda xidmət davam etdirilməkdədir.

Hərbi hissənin fəaliyyəti ilə tanışlıq zamanı Nardaran qəsəbəsində xidmətin təşkili haqqında məlumat toplamaq və fotoçəkiliş aparmaq üçün orada oldum. Məni qoşun naryadı rəisi kapitan Rasim Çərkəzli qarşıladı. Burada polislə birgə hərbi hissənin qoşun naryadının istifadəsinə verilən yeni binada mövcud müasir şərait hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün zəmin yaradır.

Kapitan R.Çərkəzli öz bölməsindən xidmətə cəlb olunan hərbi qulluqçularla qəsəbədə ictimai asayişin qorunması, ictimai təhlükəsizliyin təmin olunması üzrə qrafikə əsasən hərbi hissənin digər bölməsi ilə növbəli şəkildə xidmətə çıxdıqlarını bildirdi: "Qəsəbə daxilində həm piyada marşrut üzrə, həm də stasionar postlarda xidmət təşkil olunur. Hər bir postda 2 nəfər hərbi qulluqçu ilə birlikdə 1 nəfər də polis nəfəri xidmət aparır. Hər gün xidmətə cəlb edilən şəxsi heyətin tam tərkibdə olması, ekipirovka və silahlanması postlara çıxarkən, həmçinin, postlardan qayıdarkən yoxlanılır.

Kapitan R.Çərkəzli xidmətin idarə olunması və nəzarətdə saxlanılmasında qoşun naryadı rəisinin köməkçisi leytenant Eldar Həsənovun fəaliyyətini də qeyd etdi.

Hərbi hissə komandirinin 1-ci müavini – qərargah rəisi polkovnik-leytenant Amid Məmmədov Nardaran qəsəbəsində ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətə cəlb olunan bölmələrin hərbi qulluqçularının qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirdiklərini bildirdi. Belə ki, xidmətin ayıq-sayıq və diqqətli təşkili sayəsində hərbi qulluqçular tərəfindən şübhəli şəxslər, narkotik vasitələr, silah və sursat aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

Qeyd edim ki, Nardaran qəsəbəsində xidmətin təşkili həm hərbi hissə, həm də Daxili Qoşunların Baş İdarəsinin əməliyyat qrupları tərəfindən gündəlik yoxlanılır.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə daim nəzarət etdiyini diqqətə çatdıran dəstə komandiri polkovnik-leytenant Vüqar Şirinov söhbət əsnasında Nardaran qəsəbəsində xidmətin təşkilinin kompleks iş olduğunu söylədi: "Burada xidmətə yüksək nizam-intizamlı hərbi qulluqçular seçilir, onlarla gündəlik olaraq təlimat məşğələsi keçirilir, həmin hərbi qulluqçuların mənəvi-psixoloji durumları öyrənilir və xidmətin təşkili daim nəzarətdə saxlanılır".

Beləliklə, xidmətin düzgün təşkili komandir heyətinin bacarıqlı və səriştəli olmasının təsdiqidir.

**kapitan Sadıq Rəfiyev**

# PARAŞÜT-DESANT VƏ AXTARIŞ-XİLASETMƏ QRUPU ÖZ FƏALİYYƏTİNİ UĞURLA TƏŞKİL EDİR

Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin paraşüt-desant və axtarış-xilasetmə qrupu intizamlı hərbi qulluqçuları ilə fərqlənir. Qrupun rəisi baş leytenant Elvin Xanəliyevdir.



2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edən hərbi qulluqçumuz, ilk olaraq, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində həyat nəfəri vəzifəsinə təyin olunub. 2012-ci ildən 17077 saylı hərbi hissənin paraşüt-desant və axtarış-xilasetmə qrupunda xidmət edir. 2018-ci ilin avqust ayından qrup rəisi vəzifəsindədir. Hərbi hissə komandiri tərəfindən məsuliyyətli, özünə və tabeliyindəki şəxsi heyətə qarşı tələbkar hərbi qulluqçu kimi xarakterizə olunan baş leytenant E.Xanəliyev verilən tapşırıqların icrası zamanı sayıqlıq nümayiş etdirir.

Baş leytenant E.Xanəliyev peşəkarlıq vərdişlərini təkmilləşdirmək məqsədilə müxtəlif kurslarda iştirak edib. Belə ki, 2012-ci ildə Türkiyənin Kayseri şəhərində birinci komando tuqayında "Paraşütün qatlanması və texniki qulluğu", 2014-cü ildə yenə də Türkiyədə keçirilən "Havadan yüklərin desantlaşması" kursunda nəzəri bilikləri, habelə təcrübəsini artırıb.

Şəxsi heyətin paraşüt-xilasetmə və desant hazırlığının təşkil olunub keçirilməsinə, uçuş heyətinin xilasedici əmlaklarının düzgün istismarına cavabdeh olan qrup rəisi bildirdi ki, bu gün Daxili Qoşunların balansında helikopter ekipajının üzvləri üçün xilasedici paraşütlər, yalnız tullanış üçün nəzərdə tutulan D-6 paraşütləri, unior və ehtiyat paraşütlər mövcuddur.

Hər üç aydan bir xilasedici paraşütlər açılır, onlara texniki baxış keçirilir, havalandırılır, hər hansı birində nasazlıq və ya zədələnmə varsa, təlimatına uyğun olaraq reqlament işləri aparılır. Tullanışlar həyata keçirilmədikdə isə ildə iki dəfə paraşütlərə, həmçinin, bütün xilasedici əmlaklara texniki baxış keçirilir.

Hərbi qulluqçumuzla söhbət əsnasında məlum oldu ki, həm qrupun şəxsi heyəti, həm də uçuş heyəti ilə xilasedici vasitələrin növləri, istifadə və işləmə qaydaları, onların istismarı mövzusunda mütəmadi olaraq məşğələlər keçirilir.

Paraşüt-desant və axtarış-xilasetmə qrupunda paraşüt avadanlıqlarının reqlament işləri üzrə baş texnik baş leytenant Ramazan Əmirbəyov paraşüt-xilasetmə təminatının təşkilinə, paraşüt-desant qrupunun qüvvə və vasitələrinin hazırlığına cavabdehdir. Uçuş günləri xilasetmə vasitələrinin istifadəsinə nəzarət edir, uçuş heyəti ilə birlikdə paraşüt tullanışlarını və təlim katapultunu yerinə yetirir.

Qrupda mütəxəssis baş çavuş Samir Gülməmmədov paraşüt-xilasetmə və desant texnikasının uçotunu aparır, onların vəziyyətini yoxlayır, lazım gələrsə, əmlakların dəyişdirilməsini təmin edir və istifadəsi mümkün olmayan avadanlıqlar barədə qrup rəisinə məlumat verir. O, həmçinin, paraşütlərin vaxtında yığılmasına, xilasetmə vasitələrinin uçuşlara hazırlanmasına və istifadəsinə nəzarət edir.

Qrupda təlimatçı baş çavuş Azər Əliyev isə uçuş üçün paraşüt və digər xilasetmə, desant texnikasının vəziyyətinə, həmçinin, paraşütlərin vaxtında yığılmasına, həmçinin, xilasetmə vasitələrinin uçuşlara hazırlanmasına, paraşüt-desant əşyalarının düzgün işlədilməsinə nəzarət edir, paraşüt-xilasetmə əmlaklarının qəbulu və verilməsi zamanı müvafiq jurnalda qeydlər aparır.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 16.05.2021 9:40 Page 1



*Şəhidlərimiz*

# Vətən uğrunda son damla qanınadək döyüşdü...

Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri dəmir yumruqtək birləşərək 44 gün davam edən Vətən müharibəsində böyük fədakarlıq, vətənpərvərlik nümunəsi göstərdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi: "Qələbəmizin rəmzi olan yumruq həm güc, həm də birlikdir. Azərbaycan bundan sonra daha da güclü olacaq".

"Şəhidlərimiz" rubrikasının budəfəki qəhrəmanı milliyyətcə ləzgi olan və Vətən müharibəsində son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə yüksələn igid istehkamçımız gizir Səmədov Mayis Şadıbəy oğludur.

Gizir Mayis Səmədov 1977-ci il iyulun 28-də Xaçmaz rayonunun Qadaş-Oba kəndində anadan olub. Əslən Quba rayonunun Küsnət kəndindən olan Şadıbəy Səmədovun (2010-cu ildə vəfat edib) və Əzizə Səmədovanın böyüdüb tərbiyə etdiyi 4 övladdan (Kəmalə, Mayis, Ceyhun və Vəsilə) biri, həmçinin, ailənin ikinci övladı idi...

Orta təhsilini doğulub boya-başa çatdığı Qadaş-Oba kənd orta məktəbində alan Mayis 1992-ci ildə həmin təhsil ocağının 9-cu sinfini bitirərək, Xaçmaz şəhərindəki 92 saylı texniki-peşə məktəbinə qəbul olunub. 1995-ci ildə təhsilini başa vuraraq, "elektrik qaynaqçısı" ixtisasına yiyələnib. Müddətli həqiqi hərbi xidmətini 1996-1999-cu illərdə Daxili Qoşunların o zaman dislokasiya yeri Füzuli rayonu - döyüş bölgəsi olmuş, hazırda Bakı şəhərində yerləşən 67987 saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki peşə üzrə çalışıb. 2004-cü ilin fevral ayından etibarən Mayis Daxili Qoşunların 16073 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, təminat taqımında anbar rəisi vəzifəsinə təyin edilib.



Xidmət etdiyi dövrdə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib. Bundan əlavə, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təşkil olunan 6 aylıq "Gizir hazırlığı kursu"nu bitirib. "Gizir" hərbi rütbəsində 16073 saylı hərbi hissədə bir müddət yenidən anbar rəisi kimi xidmət edən M.Səmədov 2011-ci ilin sentyabr ayından xüsusi təyinatlı dəstədə atıcı-radiotelefonçu vəzifəsini yerinə yetirib. 2012-ci ilin sentyabr ayından etibarən qoşunların 16075 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən silahdaşımız 2019-cu ilin mart ayından istehkamçı-yarımqrupunda baş istehkamçı-yarımqrup komandiri vəzifəsinə irəli çəkilib. Bir komandir kimi bilik və bacarığı, qayğıkeşliyi sayəsində böyük rəislərin etimadını, həmçinin, tabeliyində olan şəxsi heyətin hörmətini qazanıb. Yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb. Bununla yanaşı, cəsur silahdaşımız 2017-ci ildə yüksək döyüş hazırlığı və əzmkarlığı sayəsində qazandığı "Zoğalı beret"i də qürur hissi ilə daşıyıb.

Gizir M.Səmədov istehkamçı yarımqrupunun komandiri kimi tabeliyində olan şəxsi heyətlə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirib. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında mühəndis xidmətinin rəisi polkovnik-leytenant Baba Əliyev cəsur silahdaşımızı öz üzərində çalışan fəal yarımqrup komandiri kimi xatırladığını deyir: "Daxili Qoşunların istehkamçı yarımqruplarının şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları hər zaman yüksək səviyyədə yerinə yetirib. Hələ Vətən müharibəsindən öncə istehkamçılarımız istər respublikamızın evsahibliyi etdiyi müxtəlif idman yarışları, istərsə də ölkəmizdə keçirilən digər mühüm dövlət tədbirləri zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında xüsusilə fərqləniblər. Qoşunların Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş 5 nəfər cəsur istehkamçısı - gizir Səmədov Mayis Şadıbəy oğlu (16075), baş çavuşlar Nadirov Elçin Nadir oğlu (17074), Vəlizadə Anar Afət oğlu (16075), çavuşlar Fətəliyev Emil Mayis oğlu (17072) və Orucov Afər Yafət oğlunun (25033), eləcə də vəzifə borcunu yerinə yetirərkən yaralanmış 16 nəfər qazi istehkamçımızın hər birinin fəaliyyətini məhz bu baxımdan müsbət qiymətləndirmək olar. Vətənpərvər istehkamçılarımız hər zaman olduğu kimi, ön cəbhədə də öz vəzifə borclarını məsuliyyət və şərəf hissi ilə yerinə yetirərək, gənclərə nümunə olacaq əsl qəhrəmanlıq göstərdilər".

16075 saylı hərbi hissədə "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmiş mayor Ələsgər Muxtarov (Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi yarımqrup komandirinin əzmkarlığı və cəsurluğundan bu gün də fəxr hissi ilə danışır: "Vətən müharibəsində dəstəmizin qəhrəmancasına şəhid olmuş hərbi qulluqçularından biri də istehkamçı yarımqrupunun komandiri gizir Mayis Səmədovdur.

Onun bir komandir kimi fəaliyyəti hərbi hissə komandanlığı tərəfindən də hər zaman müsbət qiymətləndirilib. Yarımqrupda yüksək döyüş hazırlığı və intizamın qorunub saxlanılması üçün tabeliyindəkilərə qarşı tələbkar olmaqla bərabər, vətənpərvərliyi və qayğıkeşliyi ilə şəxsi heyətə nümunə olub.

Döyüşlərə qatıldığı ilk gündən müqəddəs borcunu şərəflə yerinə yetirən cəsur komandir içdiyi hərbi anda sadiq əsl hərbçi kimi Vətən uğrunda canından keçməklə, tabeliyində olan şəxsi heyətə bir daha örnək olmağı bacardı.

5 oktyabr 2020-ci il tarixdə Cəbrayıl-Füzuli rayonları istiqamətində gedən döyüş Mayisin son döyüşü oldu. 7 nəfər silahdaşı ilə birgə ön mövqedəki əsgərlərimizə lazımi təminat çatdırmaq üçün gedərkən yolda pusquda dayanan mənfur düşmənin mühasirəsinə düşən igid hərbi qulluqçumuz özünü itirmir və qəflətən baş vermiş döyüşdə onlarla erməni yaraqlısını məhv edir. Lakin çox təəssüflər olsun ki, bu qeyri-bərabər döyüşdə dəstəmizin cəsur hərbi qulluqçuları gizir Səmədov Mayis Şadıbəy oğlu və gizir Həsənov Faiq Hüseyn oğlu Müdafiə Nazirliyinin 6 nəfər xüsusi təyinatlısı ilə birgə son damla qanlarınadək vuruşaraq əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldilər".

Gizir M.Səmədov 2020-ci il oktyabrın 6-da Xaçmaz rayonunun Qadaş-Oba kənd qəbiristanlığında dəfn olunub. Evli idi. Məleykə və Süleyman adlı iki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Səmədov Mayis Şadıbəy oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şair Məmməd Qədirin müəllifi olduğu, 2021-ci ildə Bakıda "Müəllim" nəşriyyatında işıq üzü görən "Haqqınızı halal edin" adlı kitabda yer alan və şəhid silahdaşımızın qəhrəmanlığını tərənnüm edən "Mayis Şadıbəy oğlu" başlıqlı şeirin üç bəndini sizlərə təqdim edirəm:

*Qadaş-Oba kəndində boya-başa yetişdin,*
*Hərbə verdin könlünü, odlar içində bişdin,*
*Səni Vətən çağırdı, dar gününə yetişdin,*
*Cəngi çalındı, cəngi, Mayis Şadıbəy oğlu,*
*Şimalın mərd pələngi, Mayis Şadıbəy oğlu.*

*Yurda şərəf gətirdin, mərdliyin, qeyrətinlə,*
*Ölümsüzlük qazandın haqqa şəhadətinlə.*
*Nizamlandı dastana sığmaz rəşadətinlə,*
*Bu dünyanın ahəngi, Mayis Şadıbəy oğlu,*
*Şimalın mərd pələngi, Mayis Şadıbəy oğlu.*

*Sən canına can verdin canım Azərbaycanın,*
*Səninlə qürur duyur, Məleykən, Süleymanın,*
*Tarixə həkk etdiyin adın, Qadaş-Obanın,*
*Əbədiyyət çələngi, Mayis Şadıbəy oğlu,*
*Şimalın mərd pələngi, Mayis Şadıbəy oğlu.*

Bundan əlavə, Ələsgər Gəncəlinin müəllifi olduğu və "Xaçmaz" qəzetinin 26 fevral 2021-ci il tarixli sayında işıq üzü görən "Vətən üçün yandı ki, Vətən yanmasın" başlıqlı məqalədə şəhid M.Səmədovun həyat və döyüş yolu geniş işıqlandırılıb.

Sonda yalnız onu deyə bilərik ki, Vətən uğrunda canlarını qurban verərək, öz qanları bahasına hər birimizə Qələbə sevincini yaşadan şəhid oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# "Ölüm bir nəfəs qədər bizə yaxın idi..."

Müharibədə zəfərin qazanılmasında hərbi qulluqçuların döyüş qabiliyyəti və ruh yüksəkliyi mühüm rol oynayır. Döyüş sınağında əsas olan insan amilidir. Düşmənə qarşı vuruşan döyüşçünün qalibiyyət əzmi onun yenilməzliyinin təməlində dayanan başlıca cəhətdir.

Hərb tariximizin şərəfli səhifəsi olan və bizi qələbə zirvəsinə ucaldan 44 günlük Vətən müharibəsində xalqımızın qeyrətli və vətənpərvər oğulları erməni işğalçılarını məğlub etdilər, torpaqlarımızın düşmən tapdağında qalmasına son qoydular, uzun illər qədəmimizin dəymədiyi, nəfəsimizin toxunmadığı, həsrətini çəkdiyimiz yurdlarımızda üçrəngli bayrağımızı qaldırdılar.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçularının göstərdikləri igidlik nümunələri heç vaxt unudulmayacaq. Onlar xalqımızın gözlədiyi Qələbə gününü reallığa çevirmək üçün öz layiqli töhfələrini veriblər. Bu yolda şəhid və qazi olan silahdaşlarımızı tanıtmaq da vacib missiyadır.

Vətən müharibəsində ağır yaralanaraq əlil olan və hərbi xidmətdən tərxis edilən çavuş Mədəni Polad Əmir oğlunun keçdiyi döyüş yolu öz əqidəsinə, içdiyi anda sədaqət, döyüşçü fədakarlığı nümunəsidir.

O, 1989-cu il mayın 30-da Şəki şəhərində anadan olub. Əmir Mədəni və Mənsurə Mədəninin üç övladından biri və yaşca kiçiyidir. Atası 2013-cü ildə vəfat edib. Evli olan qazinin 5 yaşında bir oğlu var.

Polad boya-başa çatdığı Şəkidəki Rəşid Əfəndiyev adına 10 saylı orta məktəbdə təhsil alıb. 9 illik təhsildən sonra avtomobil təmiri üzrə texnik peşəsinə yiyələnib və bu sahədə çalışıb. Onun yaşıdı olan gənclər uşaq ikən Dağlıq Qarabağda erməni separatizmi baş qaldırıb. Bədnam qonşu Ermənistanın Azərbaycana qarşı ərazi iddiası səbəbindən hərbi münaqişə başlayıb və getdikcə daha da alovlanıb. Bu münaqişə bir neçə nəslin həyatında ağrı-acılı iz qoyub. Birinci Qarabağ müharibəsində respublikamızın ərazisinin 20 faizi işğal olundu, bir milyona yaxın vətəndaşımız məcburi köçkün vəziyyətinə düşdü. Sonra atəşkəs rejimi şəraitində uzun illər bu gerçəkliklə yaşadıq. Ancaq həmin dövrdə özündən əvvəlki nəsillərin döyüş ruhundan ilhamlanan vətənpərvər və mübariz gənc nəsil yetişdi. Bu nəslin nümayəndələrindən biri də Poladdır.

2007-2009-cu illərdə Polad Müdafiə Nazirliyinin Naxçıvan şəhərindəki "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Kəşfiyyat bölməsində snayperçi olub, "çavuş" hərbi rütbəsinədək yüksəlib.





2011-ci ilin noyabr ayında Polad Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 67987 saylı hərbi hissədə əvvəlcə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, döyüş təminatı yarımqrupunda heyət nəfəri-atıcı vəzifələrinə, sonra isə hərbi hissənin xüsusi təyinatlı dəstəsinə keçirilərək, xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-snayper və snayper vəzifələrinə təyin edilib.

Vətən müharibəsinədək olan hərbi xidməti dövründə ona göstərilən etimadı doğruldub, 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə mükafatlandırılıb. Barəsində müxtəlif növ həvəsləndirmələr tətbiq edilib.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda çavuş P.Mədəninin xidmət etdiyi xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları döyüşə ilk atılanların sıralarında olublar. Polad bildirdi ki, Kəlbəcər rayonu istiqamətində Murovdağ yüksəkliyi, Cəbrayıl, Xocavənd, Qubadlı və Füzuli rayonlarının ərazilərində döyüş yolu keçib. Xüsusi təyinatlı kimi keçdiyi hazırlığın müharibə zamanı çox gərəyi olduğunu söylədi. Ümumilikdə, xüsusi təyinatlıların döyüş tapşırıqlarının yerinə yetirilməsində üstün cəhətdən fərqləndiklərini vurğuladı. İşğalçıların üzbəüz döyüşlərdə hərbi qulluqçularımızın həmlələrinə tab gətirə bilmədiklərini, mövqelərini atıb qaçdıqlarını dedi. Bizim döyüşən canlı qüvvənin sırasında həlakolma və yaralanma hallarının əsasən düşmənin qurduğu pusqu, basdırdığı minaların partlayışı və artilleriya atəşi nəticəsində baş verdiyini nəzərə çatdırdı. Qazi danışdı ki, döyüşlər vaxtı bir neçə dəfə pusquya düşüblər, itkilərimiz olub, ancaq həmin vəziyyətdə də düşmənin layiqli cavabını veriblər. Həmçinin, işğalçıları pusquya saldıqları bir epizodu xatırladı. Belə ki, Füzuli rayonuna aid ərazidə qruplarla irəliləyərkən təcavüzkarın divizionunun yerləşdiyi sahəni təsbit ediblər. Burada 4 top və digər artilleriya vasitələri, xeyli sursat, 70 nəfərə yaxın şəxsi heyət aşkarlanıb. Xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Füzuli İmraliyevin göstərişi ilə divizionun yerləşdiyi sahə mühasirəyə alınaraq atəşə tutulub və işğalçılar təlafata uğrayıblar, silah-sursat, texnika qənimət götürülüb.

Poladın dediyinə görə, müharibədə torpaqlarımızı öz canı bahasına işğaldan azad edən silahdaşlarından bəzilərinin ölümü onun gözləri önündə baş verib. Onlardan baş leytenant Kamran Kazımov, baş çavuşlar Vüqar Cəfərov və Əsgər Əhmədovun adlarını yada saldı. Silahdaşlarının şəhid olmasından dərindən sarsılıb, ancaq onların qisasının alınması, qanlarının yerdə qalmaması, xatirələrinin yaşadılması Polada müəyyən qədər təskinlik verir.

Qazi qeyd etdi ki, müharibənin öz çətinlikləri, əzab-əziyyətləri olur, lakin bütün bunlara onlar, ilk növbədə, xüsusi təyinatlı kimi hazırlanmışdılar. "Ağır döyüşlər gedib, yuxusuz gecələrimiz olub, saatlarla yağış altında qalaraq islanmışıq, bir neçə gün paltarımız qurumayıb, texnikanı düşmən vurduğundan, bəzən təchizatı bizə vaxtında çatdırmaq mümkün olmayıb, ancaq ruhdan düşməmişik, hər hansı çətinlik qarşısında iradəmiz büdrəməyib, daim irəli getmək barədə fikirləşmişik, komandirlərin əmr və tapşırıqlarını tərəddüd etmədən yerinə yetirmişik" - deyə Polad düşüncələrini bölüşdü.

Onun sözlərinə görə, hər bir insan kimi, döyüşçü də yaşamaq, öz arzularına qovuşmaq istəyir, özünəməxsus xəyalları olur, ailəsini düşünür. Ancaq müharibə gerçəkliyində dərk edirsən ki, hissə qapılmaq olmaz, qarşıda düşmən var, onun hədəfindəsən, müqəddəs torpağını təcavüzkardan təmizləməlisən, geriyə qalib kimi dönməlisən. "Müharibə itkisiz olmur, ölüm bir nəfəs qədər bizə yaxın idi, lakin ölüm qorxusu səni üstələməməlidir, döyüş ruhu varsa, bu, insana mənəvi güc verir. Vətən yolunda şəhid və qazi olmaq isə insan üçün şərəfli taledir".

Polad söylədi ki, işğaldan azad etdikləri ərazilərimizdə şəhərlər, qəsəbələr, kəndlər ermənilər tərəfindən viran qoyulub, ətraf xarabalığa çevrilib, onlar qəbiristanlıqlara qarşı da öz vəhşiliklərindən qalmayıblar.

2020-ci ilin oktyabr ayının 15-də Füzuli rayonu ərazisində döyüş zamanı düşmən Poladın tərkibində olduğu qrupun yerləşdiyi mövqeni müxtəlif növ artilleriyadan, zirehli texnikalardan şiddətli atəşə tutub. Həmin vaxt biz tərəfdən ölən və yaralananlar olub. Yaxınlığına düşən minaatandan atılan bir mərminin partlaması nəticəsində xırda qəlpələr Poladın qollarını yaralayıb, ikinci mərminin partlayışından yaranan qəlpə isə sağ ayağının dizdən aşağı nahiyəsini qoparıb, bud nahiyəsi ağır dərəcəli zədələnib. Yaralandığı yer atəş altında olduğundan, Poladın oradan çıxarılması bir neçə saat çəkib. Onu çıxartmağa can atan iki hərbi qulluqçudan biri həlak olub, digəri isə yaralanıb. Nəhayət, digər döyüşçülər yaralıya yaxınlaşa bilərək, ərazidən çıxarıblar. Çətinliklə Füzuli rayonundakı xəstəxanaya çatdırılıb, burada "sağ budunun yuxarı üçdə birinin travmatik amputasiyası" diaqnozu qoyularaq cərrahi əməliyyat aparılıb. Xəstəxanadan Daxili Qoşunların Qospitalına göndərilib. Qospitalda uzunmüddətli müalicə kursu keçib. Qaziyə 2-ci qrup əlillik dərəcəsi verilib.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 25 dekabr 2020-ci il tarixli, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Mədəni Polad Əmir oğlu "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Müxtəlif televiziya kanallarında və sosial şəbəkələrdə qazimizin şərəfli döyüş yolu işıqlandırılıb.

İnanıram ki, Polad doğmalarının mənəvi dəstəyi ilə əlilliyin yaratdığı bütün çətinliklərin öhdəsindən bacarıqla gələcək, canından artıq sevdiyi Vətən üçün layiqli övlad yetişdirəcək, cəmiyyətimizə öz döyüş təcrübəsi ilə faydalı olmağa çalışacaq.

**Yalçın Abbasov**

4_Layout 1 15.05.2021 12:15 Page 1



# İstehkamçılar çətin və riskli tapşırıqları bacarıqla yerinə yetirirlər

67987 saylı hərbi hissənin öz döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur. Yarımqrupun əsas vəzifələri təhkim edilmiş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - mərmilərin, partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılmasıdır. Eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarışlar aparılaraq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi istehkamçı yarımqrupun qarşısında duran tapşırıqlardandır.



Yarımqrup komandiri-baş istehkamçı baş gizir Sənan İbayev 2007-ci ilin mart ayından Daxili Qoşunların sıralarında xidmət edir. 2015-ci ilin yanvar ayından hazırkı vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Baş gizir S.İbayev qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlərin keçirildiyini vurğuladı. Dedi ki, hər həftənin şənbə günü hərbi hissənin mühəndis və kimya xidməti rəisi mayor Taleh Murtuzəliyev tərəfindən ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunur. Bundan əlavə, yarımqrupun şəxsi heyəti həftənin digər günlərində ərazidə minaların axtarılması, tapılması, minaların əraziyə döşənməsi, minalı ərazidən keçidlərin açılması, avtomobillərin yoxlanılması və şübhəli bilinən bağlamalara təhlükəsizlik qaydalarına əməl edilərək yaxınlaşma, səyyar minaaxtaran cihazlarla işləmə qaydasının öyrədilməsi və başqa mövzularda məşğələlərə cəlb olunur.



Ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə, yaşayış və qeyri-yaşayış obyektlərində istehkamçılar müvafiq sxemlərə uyğun olaraq, ərazinin tam axtarışı, həmçinin, nəzarət-buraxılış məntəqələrində avtomobillərin yoxlanılması zamanı yandırıcı, partlayıcı, kəsici və deşici alətlərin aşkarlanması üçün yüksək məsuliyyət və sayıqlıq nümayiş etdiriblər.

Hərbi hissədən İsrailin Bakıdakı səfirliyində təhlükəsizlik tədbirlərinin yoxlanılması üzrə xidmətə istehkamçı yarımqrupundan istehkamçılar cəlb olunurlar. Xidmət müddətində bir çox xüsusi tapşırığı uğurla yerinə yetirən yarımqrupda istehkamçı-radiotelefonçu vəzifəsində olan baş çavuş Vüsal Yusifov praktiki fəaliyyətdə öz səriştəsi ilə çətinliklərin öhdəsindən bacarıqla gəlir. Sonuncu dəfə 2021-ci il fevralın 16-da İsrail səfirliyinin yerləşdiyi “Hyatt Regency” mehmanxana kompleksində aparılan yoxlama zamanı baş çavuş V.Yusifov mühəndis aləti ilə baxış keçirərkən avtomobil dayanacağının havalandırma sistemində sınaq məqsədilə yerləşdirilmiş şübhəli bağlama aşkar edib. Bağlama aidiyyəti üzrə səfirliyin təhlükəsizlik xidmətinə təhvil verilib.



2015-ci ilin yanvar ayından hərbi hissənin xüsusi təyinatlı dəstəsində istehkamçı-heyvan təlimatçısı vəzifəsində xidmət edən çavuş Araz Məmmədzadə silahlı cinayətkarların axtarılması, tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılmasında xidməti itlərin əməyindən geniş istifadə olunduğunu vurğuladı.

“Döyüş əməliyyatlarında qazanılan müvəffəqiyyət bir çox halda mühəndis təminatı üzrə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsindən asılıdır” - deyən “Kobra” şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri, “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adına layiq görülən, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilən polkovnik-leytenant Füzuli İmrəliyev istehkamçıların Vətən müharibəsi zamanı minalı sahələrdən keçidlərin açılmasında, təhlükəli partlamamış sursatların zərərsizləşdirilməsində yaxından iştirak etdiklərini vurğuladı.

44 günlük Vətən müharibəsində Azərbaycan torpaqları işğaldan azad olundu. “Azad edilmiş torpaqlarda minatəmizləmə işi birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz nitqində deyib. Sözügedən işin icrasında istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Zəngilan, Qubadlı rayonlarında və Şuşa şəhərində ərazilərin minalardan təmizlənməsi əməliyyatlarında baş gizir S.İbayev və baş çavuş Əfqan Əliyev bu vəzifəni müvəffəqiyyətlə yerinə yetiriblər.

Nə qədər riskli və təhlükəli olsa da, hər zaman verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirən, belə bir məsuliyyətli işin öhdəsindən layiqincə gələn istehkamçılarımıza gələcək xidmətlərində uğurlar arzulayıram.

**kapitan Sadıq Rəfiyev**

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidməti personalının fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.



16077 saylı hərbi hissənin tibb personalı da vəzifə borcuna məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru Sadəddin Bəkirov şəxsi heyətin tibbi təminatını həyata keçirir. Tabeliyindəki şəxsi heyətə qarşı tələbkar olan xidmət rəisi, eyni zamanda, onlardan diqqət və qayğısını da əsirgəmir. O, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena tədbirlərinin həyata keçirilməsinə, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.





Tibb xidməti mayoru S.Bəkirov bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsində feldşer gizir Leyla Əliyeva, sanitar-təlimatçı dezinfektor baş çavuş Elməddin Səfərov və mülki işçi, aptek rəisi Günay Allahverdiyeva qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Xüsusilə, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Belə ki, sanitar-təlimatçı dezinfektor baş çavuş E.Səfərov tərəfindən gündə bir dəfə olmaqla, əsgər kazarmalarında, yeməkxanada, qarovul məntəqəsində, qərargahda, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Həmçinin, hərbi hissənin və yataqxananın ərazisinə daxil olan bütün avtomobillər də dezinfeksiya olunur.

Bundan əlavə, gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə ambulator müalicəyə götürülür.

**baş leytenant**
**Nigar Ağayeva**

*Nümunəvi xidmət*

# PEŞƏ MƏHARƏTİ VƏ TƏCRÜBƏ DÖYÜŞ ŞƏRAİTİNDƏ DƏ ÖNƏMLİDİR

Hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücülərin rolu böyükdür. Daxili Qoşunların Təlim Mərkəzi rəisinin müavini mayor Umruz Məmmədov bu işdə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri kimi baş çavuş Məhəmməd Allahverdiyevin adını çəkdi.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş M.Allahverdiyev 1998-ci il iyunun 2-də Qazax rayonunun Qazaxbəyli kəndində anadan olub. Orta təhsilini doğulduğu kənddəki Alı Mustafayev adına tam orta məktəbdə alıb. 2016-cı ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25031 saylı hərbi hissəsində hərbi xidmət keçib. 25031 saylı hərbi hissənin təminat bölüyündə manqa komandiri vəzifəsində xidmət edib.

Hərbi xidmətə marağı və rəğbəti onun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına yenidən qayıtmasına səbəb olub. 2018-ci ilin yanvar ayında 16077 saylı hərbi hissənin kəşfiyyat bölüyündə baş kəşfiyyatçı vəzifəsinə təyin edilib. Baş çavuş M.Allahverdiyev 2019-cu ilin oktyabr ayından Təlim Mərkəzinin təminat bölüyündə sürücü-atıcı vəzifəsindədir. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən hərbi qulluqçumuz həm Təlim Mərkəzi komandanlığının, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

16075 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidmətinin rəisi kapitan Bəxtiyar Orucov qeyd edir ki, baş çavuş M.Allahverdiyev hər zaman avtomobil parkında daxili qaydalara ciddi riayət edir, parkdan çıxmazdan əvvəl ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal onları aradan qaldırır. O, texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, işinin məsuliyyətini dərk edir.

Məlumdur ki, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi döyüş hazırlığının yüksək olması ilə yanaşı, şəxsi heyətin, silah-sursatın və digər növ təchizatın əməliyyat rayonuna təhlükəsiz, eləcə də vaxtında çatdırılmasından birbaşa asılıdır. Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat idarəsinin avtomobil və zirehli texnika şöbəsində zabit mayor Etibar Yusubov baş çavuş M.Allahverdiyevin bu işin öhdəsindən bacarıqla gəldiyini söylədi: “Sentyabr-noyabr aylarında davam etmiş Vətən müharibəsi zamanı baş çavuş M.Allahverdiyev üzərinə düşən vəzifələri peşəkarcasına yerinə yetirib”.

Məhəmmədlə həmsöhbət olduğum zaman öyrəndim ki, o, 2020-ci il oktyabrın 17-dən Vətən müharibəsinin iştirakçısı olub. Füzuli rayonunda, Xocavənd rayonunun Hadrut qəsəbəsində və Şuşa şəhərində bir sıra tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib. Hərbi qulluqçumuz şəxsi heyətin, silah-sursatın və digər növ təchizatın daşınmasında, şəxsi heyətin təhlükəsiz yerə aparılmasında və yaralıların təxliyyə olunmasında mərdlik göstərib. Öz işinin peşəkarı, nəqliyyat vasitələrinin texniki xüsusiyyətlərinə yaxşı bələd olan hərbi qulluqçumuzun iş təcrübəsi döyüş meydanında onun köməyinə yetib.

Baş çavuş M.Allahverdiyev bundan sonra da hərbi bilik və bacarıqlarını, peşə vərdişlərini daha da inkişaf etdirmək niyyətindədir.

**kapitan Sadıq Rəfiyev**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Böyük Britaniya “Challenger 3” tankı sifariş edir

Böyük Britaniya Kral Ordusunun ehtiyaclarını ödəmək üçün 148 ədəd “Challenger 3” əsas döyüş tankı sifariş edir. “Poliqon” xəbər verir ki, bu barədə BBC məlumat yayıb.



“Challenger 3” tankları 1998-ci ildən bəri istifadə edilən “Challenger 2” tankının dərin təkmilləşdirilmiş variantıdır.

Döyüş maşınlarının təkmilləşdirilməsi “Rheinmetall BAE Systems Land” zavodunda yerinə yetiriləcək. Tarixi razılaşmanın ümumi dəyəri 800 milyon funt sterlinq və ya 1,119 milyard ABŞ dollarıdır.

İcrasına bu il başlanacaq proqram əsasında Böyük Britaniya Ordusu ilk “Challenger 3” tanklarını 2027-ci ilə, sonuncunu isə 2030-cu ilə qədər almağı planlaşdırır.

### Türkiyə ordusuna “Kirpi” zirehli maşınlarının yeni variantı təhvil verilib

Türkiyə Silahlı Qüvvələrinə 10 ədəd “Kirpi” zirehli maşınlarının partlayıcı maddələri aşkarlaya və zərərsizləşdirə bilən variantı təhvil verilib.

“Ordu.az” xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd olunan zirehli maşınlar mina və əldəqayırma partlayıcı maddələri robot qolu vasitəsilə uzaqdan zərərsizləşdirə bilir.



Boş ağırlığı təxminən 19 ton olan “Kirpi” zirehli maşınları Türkiyənin BMC şirkəti tərəfindən istehsal edilir.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Kamran Atakişiyevə **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı gizir Vüsal Gözəlova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000